# *XİN:* "İtaliya tərəfindən yürüdülən siyasət bəzi Avropa ölkələrinə nümunə olmalıdır"

**İtaliya tərəfinin həm münaqişə, həm də postmünaqişə dövründə bölgə üzrə sərgilədiyi siyasət və yanaşma daim balanslı olub.**

Bu ölkə tərəfindən beynəlxalq hüququn pozuntularını gözardına alan siyasətdən qaçınılması bir daha İtaliya tərəfinin məsələdən daim agah olduğunu göstərib və Fransa kimi ölkələrin yürütdüyü destruktiv siyasətin nə dərəcədə əsassız və nəticəsiz olduğunu sübut edib.

Hesab edirik ki, İtaliya tərəfindən yürüdülən bu siyasət başda Fransa olmaqla, bəzi Avropa ölkələrinə nümunə olmalıdır. AZƏRTAC xəbər verir ki bu fikirlər XİN-in mətbuat katibi Ayxan Hacızadənin İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin bölgədəki vəziyyət ilə bağlı açıqlamasına dair yerli medianın sualına cavabında yer alıb.

Mətbuat katibi həmçinin qeyd edib ki, İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavininin verdiyi bu açıqlama, ilk növbədə beynəlxalq hüququn təməl prinsip və normalarına hörmətin əlamətidir. Bu, eyni zamanda ölkələrin daxili işlərinə müdaxilənin, Azərbaycanla Ermənistan arasında normallaşma və sülh prosesi kimi həssas məsələ ilə bağlı məsuliyyətsiz yanaşmadan çəkinilməsinin nə dərəcədə vacib olduğunu nümayiş etdirir.

Azərbaycan.- 2024.- 5 aprel, № 70.- S.6.